# AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏN–TƏBİƏT TANDEMİ

**Aygün Bağırlı**

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı*
*aygunbagir77@gmail.com*

Azərbaycanın şair və yazıçıları öz əsərlərində Vətənin müxtəlif təbiət gözəlliklərini təsvir və vəsf etməklə həm də ölkənin poetik xəritəsini yaradırlar. Onların yaradıcılığındakı təbiət təsvirləri təkcə vətənimizin füsunkar gözəlliyini təqdim etmək xarakteri daşımır, həm də Azərbaycanın tarixi keçmişini, mənəvi dəyərlərini, xalqın xarakterini göstərmək baxımından maraq kəsb edir. Belə ki, Cəfər Cabbarlı "Şiş ucları buludlarla döyüşən, dağlarında buzları var ölkəmin" – deyəndə təkcə Azərbaycanın təbiət əsrarəngizliyini təsvir etmək istəməmişdir. O, eyni zamanda, Azərbaycan xalqının məğrurluğunu, vüqar və əzəmətini göstərmək istəmişdir. Belə nümunələr Azərbaycan ədəbiyyatında saysız hesabsızdır. İstər şifahi xalq ədəbiyyatında, istər Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif kimi

klassiklərin əsərlərində, istərsə də müasir ədəbiyyatda ölkəmizin yeraltı və yerüstü zənginlikləri layiqincə vəsf olunmuşdur. Qeyd edək ki, Nizami Gəncəvinin "Bərdə nə gözəldir, necə qəşəngdir", Vidadinin "Külli-Qarabağın abi-həyatı nərmə-nazik bayatıdır, bayatı", Vaqifin "Kür qırağının əcəb seyrəngahı var" kimi misralarının həm də tarixi əhəmiyyəti var.

Təbiət–Vətən, Vətən–Təbiət tandeminin bariz nümunələrinə uşaq ədəbiyyatında da çox rast gəlirik. Xalq şairi Səməd Vurğun 40-cı illərdə "Balalar üçün gözəl əsərlər yaradaq" məqaləsində vurğulayırdı ki, uşaqlarda vətənpərvərlik hissini formalaşdırmaq üçün onları düşmənə nifrət ruhunda böyütmək lazım deyil. Bunun üçün ən yaxşı yol azyaşlıya vətəninin gözəlliklərini göstərmək, füsunkar təbiəti ilə tanış etmək və sevdirməkdir. O bu gözəlliyi ondan almaq istəyən düşmənlə mübarizə yolunu özü seçəcək. Qeyd edək ki, şairin xələfləri ustad tövsiyəsinə əməl edərək, əsərlərində kiçik oxucuya Vətənin əsrarəngiz mənzərələrini təqdim etmişlər. İstər nəsr, istər poeziyada Azərbaycanın bədii xəritəsini yaratmağa nail olan şair və yazıçılar ölkəmizi əsərlərində dəyərincə təqdim edə bilmişlər. Abdulla Şaiqin, Abbas Səhhətin inkişaf etdirdiyi uşaq ədəbiyyatının sonrakı yaradıcıları da bu ənənəyə sadiq qalmışlar. Zahid Xəlil, Rafiq Yusifoğlu, Sevinc Nuruqızı, Nuranə İşıq, Qəşəm Nəcəfzadə, Qəşəm İsabəyli, İbrahim Yusifoğlu kimi çağdaş uşaq yazarlarımız bu gün də təbiət gözəlliklərini təsvir edərkən mövzuya məhz Vətən–Təbiət tandemi aspektindən yanaşırlar. Belə ki, Sevinc Nuruqızı Şuşanın valehedici gözəlliyindən ilahi sevgi səviyyəsində danışır: Həmişə mənə elə gəlib ki, Şuşa bizim günahlarımızın yuyulduğu yerdir... Həmişə düşünmüşəm ki, bu yurdun Rəbbinə keçən yolu məhz Şuşadan keçir. O dolamaları qalxanda səmaya bir pillə yaxın olursan, yerə bir pillə uzaq..." Yaxud Zahid Xəlil yazır: "Dünyada yeddi rəng var deyirlər. Amma Qarabağın çəmənliklərindəki rənglərin sayı-hesabı yoxdur. Dünyada yeddi musiqi ladı var, deyirlər. Amma Qarabağ bulaqlarının oxuduğu nəğmələrdə nə qədər lad olduğunu indiyə qədər bilən olmayıb".

Uşaq ədəbiyyatı nümunələində yaradılan təbiət lövhələri, vəsf olunan gözəlliklər kiçik oxucularda ətraf mühit, onları çevrələyən coğrafiya haqqında bilgi yaratmaqla yanaşı, həm də onlarda ülvi hisslər formalaşdırır, onlara ərməğan olan bu dəyərlərin mənəvi anlamını izah edir. Özünü bütöv təbiətin bir parçası hesab edən uşaq onu əhatə edən kainatın qorunmasında özünü məsul hesab edir.